

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 13 oktyabr 2021-ci il №80 (2588) https://mod.gov.az Qiyməti 30 qəpik


## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Biz Hadrut əməliyyatını keçirməklə öz gücümüzü bir daha Ermənistana və bütün dünyaya göstərdik

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 9-da Xocavənd rayonunun Hadrut qəsəbəsinə və Tuğ kəndinə səfər edib. Dövlətimizin başçısı Hadrut qəsəbəsində yeni məscidin təməlini qoyub, Hadrut-Cəbrayıl-Şükürbəyli, Tuğ-Hadrut və Füzuli-Hadrut yollarında aparılan tikinti işləri ilə tanış olub, yeni "Hadrut" Qovşaq yarımstansiyasının təməlini qoyub. Sonra Prezident İlham Əliyev Xocavənd rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdə çıxış edib.*



Prezident İlham Əliyevin çıxışı

- Əziz dostlar, bu gün Hadrut qəsəbəsinin işğaldan azad olunmasının birinci ildönümüdür. Sizi və bütün Azərbaycan xalqını bu münasibətlə ürəkdən təbrik edirəm. Bu günü sizinlə birlikdə burada - Hadrutda qeyd etmək, hesab edirəm ki, xüsusi məna daşıyan hadisədir. Biz uzun fasilədən sonra Hadruta - Xocavəndə qayıtmışıq. Döyüşərək, qan tökərək, şəhidlər verərək qayıtmışıq. Allah bütün şəhidlərimizə rəhmət eləsin, onların qanı, canı bahasına, hərbçilərimizin şücaəti, qəhrəmanlığı hesabına biz tarixi ədaləti bərpa etdik, işğalçıları doğma torpaqlarımızdan qovduq və doğma torpaqlarımıza qayıtdıq. Bu gün artıq Hadrutun və ümumiyyətlə Qarabağın yeni dövrü başlayır.

Hadrut əməliyyatı İkinci Qarabağ müharibəsindəki əməliyyatlar sırasında xüsusi əhəmiyyət daşıyan əməliyyatdır. Həm hərbi nöqteyi-nəzərdən, həm strateji nöqteyi-nəzərdən bu əməliyyatın çox böyük əhəmiyyəti var idi. Bu əməliyyatın uğurla başa çatması bizə imkan verdi ki, öz hədəfimizə - Qarabağın azad edilməsinə nail olaq. Hadrutun yerləşməsi bu bölgədə strateji nöqteyi-nəzərdən xüsusi əhəmiyyətə malikdir, çünki dağlıq ərazidir. Qəsəbə ətrafında yerləşən təpələr böyük əraziyə nəzarət etməyə imkan verir və Hadrutu götürmək hərbi nöqteyi-nəzərdən çox çətin idi. Eyni zamanda, Hadrutu götürməklə bizim gələcək planlarımız üçün yeni imkanlar açıldı. Onu da bildirməliyəm, baxmayaraq ki, müharibə zamanı Ermənistan ordusunda on mindən çox fərari olmuşdur və bəzi yaşayış məntəqələrindən onlar tələm-tələsik qaçaraq çıxmışdılar, amma Hadrutda direniş göstərdilər, müqavimət göstərdilər və burada gedən şiddətli döyüşlər bir neçə gün davam etmişdir. Buna baxmayaraq, Azərbaycan əsgəri, zabiti qarşısında onlar öz acizliyini dərk edərək burada da məğlubiyyətə uğradılar.

Hadrut əməliyyatının əhəmiyyəti ondadır ki, Ermənistan rəhbərliyi və Ermənistan ordusu gözləmirdi ki, biz Cəbrayıldan sonra Hadrut istiqamətinə gedəcəyik. Onlar hesab edirdilər ki, biz Füzuli istiqamətinə gedəcəyik. Baxmayaraq ki, Hadrutda onların çox böyük canlı qüvvəsi var idi, bizi gözləmirdilər. Çünki hərbi nöqteyi-nəzərdən Hadrutu götürmək doğrudan da çox böyük fədakarlıq və peşəkarlıq tələb edirdi. Biz bu əməliyyatı keçirməklə öz gücümüzü bir daha Ermənistana və bütün dünyaya göstərdik. Göstərdik ki, heç kim və heç nə bizim qabağımızda dura bilməz, nəyin bahasına olursa-olsun, biz bütün torpaqlarımızı azad edəcəyik.

Azərbaycan ictimaiyyəti yaxşı bilir ki, Hadrut əməliyyatı ilə bağlı Ermənistan mətbuatında yalan informasiyalar kifayət qədər çox idi. Biz artıq Hadrutun ətrafında yerləşən bütün dağları işğalçılardan təmizləyəndən sonra aydın oldu ki, qəsəbənin götürülməsi, sadəcə olaraq, müəyyən zaman tələb edir. Biz az itkilərlə qəsəbəni götürmək əzmində idik və buna da nail olduq. Ermənistan rəhbərliyi və Ermənistan Müdafiə Nazirliyi isə bəyan edirdi ki, Hadrut ermənilərin əlindədir. Guya ki, onlar növbəti dəfə taktiki geriləmə ediblər və indi Hadruta qayıdıblar, Azərbaycan əsgərlərini Hadrutdan çıxarıblar. Bütün bu yalanları müşahidə edərək, sadəcə olaraq, təəccüb edirdim. Çünki açıq-aydın idi ki, Hadrut artıq bizdədir. Mən əmr verdim Hadrutda Azərbaycan bayrağı qaldırılsın ki, ermənilərin bu yalanlarına son qoyulsun. Ancaq ondan sonra - Azərbaycan əsgər və zabitləri bizim dövlət bayrağımızı Hadrutda qaldırıb mənə raport verəndən sonra artıq Ermənistan rəsmi təbliğatı etiraf etdi ki, Hadrut Azərbaycan Ordusunun nəzarətindədir.

Bu, bir daha onu göstərir ki, Ermənistan təbliğatı istər işğal dövründə, istər müharibə dövründə, istərsə də postmüharibə dövründə yalan üzərində qurulub. Onların tarixi də saxtadır, keçmişi də saxtadır, dövlətçiliyi də saxtadır, mifologiyası da saxtadır. Sadəcə olaraq, dünya erməniliyi yaşadığı ölkələrdə elə bir yalan rəy yaradıb ki, sanki Ermənistan əhalisi əsrlər boyu burada yaşayıb. Hadruta ermənilər İrandan XIX əsrdə köçürülüblər. Bunu hamı bilir. O vaxta qədər burada erməni yaşamırdı. Tarixi saxtalaşdıraraq, bu gün də bugünkü reallıqları saxtalaşdırırlar. Müharibə dövründə də biz Ermənistan rəsmi orqanlarından nə qədər yalan eşitdik. Onların Müdafiə Nazirliyindən, - yəqin ki, onun adını gərək dəyişdirib yalan nazirliyi qoysunlar, - o qədər yalan, o qədər cəfəng informasiyalar gəlirdi ki, həm biz, həm də beynəlxalq ekspertlər, sadəcə olaraq, təəccüb edirdilər. Hadrutla bağlı bu yalanın dərəcəsi ən pik həddə çatmışdı. Çünki Hadrutun azad edilməsi Ermənistana çox böyük mənəvi-psixoloji sarsıntı yaşatdı.

Birincisi ona görə ki, onlar hesab edirdilər, Azərbaycan Ordusu Hadrutu heç vaxt azad edə bilməz. İkincisi ona görə ki, Hadrut keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Hadrut rayonunun inzibati mərkəzi idi, rayon mərkəzi idi. Ermənistan rəhbərliyi və Ermənistan ictimaiyyəti gördü ki, bizim üçün bütün torpaqlar bizim torpaqdır - istər Füzuli olsun, istər Cəbrayıl olsun, istər Zəngilan olsun, istər Hadrut olsun, Şuşa olsun, Suqovuşan olsun. Keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisində yerləşən yaşayış qəsəbələrini işğalçılardan azad etmək Ermənistana göstərdi ki, Ermənistan torpaqlarımızdan çıxmaq haqqında öhdəlik götürməyənə qədər biz dayanmayacağıq və dayanmadıq. Ermənistan artıq kapitulyasiya aktına imza atmağa hazır olduqdan, bizə bu haqda məlumat daxil olduqdan sonra dedik ki, bəli, dayanırıq və dayandıq, qalan rayonları siyasi yollarla geri qaytardıq.

Ona görə Hadrut əməliyyatının həm strateji, həm tarixi, həm mənəvi-psixoloji baxımdan çox böyük əhəmiyyəti var idi. Bu gün keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin keçmiş Hadrut rayonu işğalçılardan tam azad edilmişdir. Müharibə başa çatandan sonra Ermənistanın Şirak vilayətindən keçmiş Hadrut rayonunun bəzi kəndlərinə xüsusi diversiya qrupu göndərilmişdi. Onlar noyabrın sonlarında Laçın dəhlizindən keçərək bu bölgələrə daxil oldular və bildiyiniz kimi, tərksilah edildilər, həbs olundular. Cinayət törətməmiş hərbçilər geri qaytarıldı, cinayət törətmiş hərbçilər, diversantlar artıq məhkəmə qarşısında cavab verməli oldular. Yəni, onu demək istəyirəm ki, hətta müharibə başa çatandan, Ermənistan kapitulyasiya aktına imza atandan təxminən 20 gün, iki həftə sonra onlar yenə də Hadruta hücum etməyə çalışdılar. Amma Azərbaycan Silahlı Qüvvələri lazımi addımları atmışdı.

(Ardı 2-ci səhifədə)

## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Biz Hadrut əməliyyatını keçirməklə öz gücümüzü bir daha Ermənistana və bütün dünyaya göstərdik

(Əvvəli 1-ci səhifədə)



Azərbaycanın inzibati-ərazi bölgüsünə görə Hadrut qəsəbəsi Xocavənd rayonunun tərkib hissəsidir və vaxtilə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinə aid olan Hadrut və Martuni rayonları birləşdirilərək, - onları biz birləşdirdik, - Xocavənd rayonu yaradıldı. Onu da bildirməliyəm ki, keçmiş Martuni rayonunun da təqribən 55-60 faizi işğalçılardan azad edilib və Azərbaycan vətəndaşları o bölgələrə də qayıdacaqlar.

Hadrut qəsəbəsinə baxdıqda hər kəs bir daha görür ki, ermənilər bu torpaqları özləri üçün doğma torpaq saymırdılar. Çünki baxın, nə gündədir Hadrut. Siz Hadrutu tanıyırsınız, burada yaşamısınız, olmusunuz, yaxın kəndlərdə də yaşamışınız, burada bir neçə kəndin nümayəndələri var. Burada demək olar ki, 30 il ərzində heç nə dəyişilməyib, hərbçilər üçün iki bina tikilmişdi, bir məktəb də təmir olunmuşdu. Qalan bütün binalar necə var idi, elə də qalıb. Yəni, kütləvi səfalət hökm sürüb, bir daş daş üstünə qoyulmayıb. Görün yollar, binalar nə gündədir. Bəzi binalarda ümumiyyətlə insan necə yaşaya bilər, böyük sualdır. Sual olunur, bəs 30 il ərzində Ermənistan dövləti xarici ermənilərdən milyonlarla pul alıb. Onlar hər il marafon düzəldirdilər, hər il təqribən yüz milyon dollardan çox pul yığılırdı. Onu vurun 30 ilə, görün təxminən nə qədər pul edir. Mən indi bütün bu bölgələrə gedirəm - Hadrutda da, Hadrutun kəndlərinin bir çoxunda da, Xocalının Çanaqçı, Sığnax kəndlərində də olmuşam. Azıx olsun, Tuğ olsun, Susanlı olsun və başqa kəndlər - hamısı bərbad vəziyyətdədir. İndi bizim inşaatçılar bəzi kəndlərə gedirlər, təhlil aparırlar ki, binaların 95 faizi yararsız vəziyyətdədir. Bəs, yığılan bu milyardlar hara gedib? Deməli, Ermənistan rəhbərliyi, onun keçmiş oğru rəhbərliyi, sadəcə olaraq, dünyanın zəngin ermənilərini aldadaraq, marafonlar düzəldərək o pulları cəlb edib özləri üçün bildikləri kimi xərcləyiblər.

Onların böyük bir fondu var, adı Hayastandır. Bilməyənlər üçün deyə bilərəm ki, Hayastan, əslində, Ermənistan deməkdir. Bilmirəm nəyə görə ingilis dilində, rus dilində Hayastana Armenia deyirlər, çünki ermənilər özlərini hay adlandırırlar, öz ölkəsini Armenia yox, Hayastan adlandırırlar. Bu tarixçilərin işidir. Mən bunun səbəbini bilirəm, amma yəqin ki, gərək Azərbaycan tarixçiləri də daha dolğun tədqiqatlar aparsınlar. Yəni, bu Hayastan fondu dediyim kimi, bəlkə də bir neçə milyard pul yığmışdır. Həmçinin Amerikada yaşayan zəngin ermənilər öz xüsusi fondlarını yaradıblar, öz ailə üzvlərinə aid fondlar yaradıblar. Otuz il ərzində bəlkə də ən azı bir neçə milyard pul yığılıbdır və o pulun taleyi, necə deyərlər, məlum deyil. Çünki azad edilmiş bütün yerlərə baxdıqda, hətta erməni əhalinin yaşadığı yerlərə baxdıqda, orada heç bir inkişafın əsər-əlaməti yoxdur. Görün Şuşa nə gündədir. Onlar Şuşanı bütün dünyaya öz şəhəri kimi qələmə verməyə çalışırdılar, bu gün də çalışırlar. Əgər sənin şəhərindirsə, niyə bu gündədir?! Şuşada bir dənə də yeni bina yoxdur. İki yeni bina var. Biri separatçıların rəhbərlərinə məxsusdur, biri də xaricdə yaşayan başqa bir zəngin erməniyə. Özü də villalardır, öz şəxsi evləridir. Bir dənə də bina yoxdur. Şuşadakı 17 bulağın, 17-si də qurudulub. Yaxşı, bu, sənin şəhərindirsə, niyə bu gündədir?!

İndi burada əyləşənlərin bir neçəsi Tuğ kəndindəndir. Mən sizi Tuğ kəndinə də aparacağam, görərsiniz kəndi nə günə qoyublar. Mən orada olanda dəhşətə gəldim. Onlar Tuğda hər il müxtəlif festivallar təşkil edirdilər. Xaricdən qonaqlar cəlb olunurdu, gəlirdilər və belə bir videogörüntü yaradılırdı ki, sanki çox inkişaf etmiş yerdir. Dağılmış vəziyyətdədir, məktəb dağılıb, mədəniyyət evi dağılıb, binalar demək olar ki, hamısı köhnəlib. Yəni, bax, budur Ermənistan işğalının əsl siması.

Onlar bizim torpağımızı işğal ediblər, Azərbaycan əhalisini etnik təmizləməyə məruz qoyublar, bütün evləri, binaları, tarixi abidələri dağıdıblar və özləri üçün də bir həyat qurmayıblar. İşğalı bundan sonra 30 il də davam etdirmək istəyirdilər. Beynəlxalq ictimaiyyət də, bu məsələ ilə məşğul olanlar da demək olar ki, buna göz yumurdular. Biz buna son qoyduq. Bir il bundan əvvəl Hadrutun azad olunması bir daha demək istəyirəm ki, tarixi hadisə sayıla bilər. Çünki bundan sonra biz artıq müxtəlif istiqamətlər üzrə Zəfər yürüşümüzü davam etdirdik. Bir istiqamət Füzuli istiqaməti idi. Hadrut azad olunandan heç 10 gün keçməmiş biz Füzulini azad etdik. Digər istiqamət Şuşa istiqaməti idi. Bax, o Zəfər yolu dediyimiz tarixi yol, o cümlədən Hadrut meşələrindən keçirdi. Beləliklə, Füzuli oktyabrın 17-də götürüləndən sonra Ermənistana daha çox zərbə oldu. Çünki artıq Cəbrayıl, Hadrut, Füzuli, yəni böyük yaşayış məntəqələri işğaldan azad edildi və müharibənin sonrakı gedişatını hər kəs bilir.

Biz Hadrutu bərpa edəcəyik. Hadrutun baş planı, onun ilkin versiyası mənə təqdim edildi. Mənim bir çox iradlarım olub, ona görə mən bu gün o planı gətirmədim. Çünki hələ onun üzərində işləmək lazımdır. Ancaq hesab edirəm ki, yaxın 1 ay ərzində bizim memarlar, inşaatçılar yeni plan üzərində işləyəcəklər, təqdim olunacaq və biz onu təsdiq edəcəyik.

Bu gün isə artıq Hadrutun bərpası işlərinə start verildi. Avtomobil yolunun təməli qoyuldu. Dördzolaqlı Hadrut-Cəbrayıl, Hadrut-Füzuli avtomobil yolları çəkiləcək, "Hadrut" yarımstansiyası tikiləcək, onun təməli qoyuldu və Hadrutda məscidin tikintisinə də start verildi. Məscidin də təməlini mən qoydum və hesab edirəm ki, bu da tarixi hadisədir. Çünki sovet vaxtında Hadrut qəsəbəsində yaşayanların əksəriyyəti ermənilər idi. Onlar, əlbəttə ki, burada məscidin inşasına imkan verməzdilər və bilirik ki, bütövlükdə sovet dövründə - ateizm dövründə məscid tikmək mümkün deyildi.

Biz həm tarixi ədaləti bərpa edirik, həm bizim dini-mənəvi dəyərlərimizə sədaqət göstəririk. Eyni zamanda, artıq yarımstansiya, yol əsas infrastruktur layihələrindən biridir və digər layihələr də icra ediləcək. Hadrutun tarixi hissəsi yenidən qurulacaq. Artıq binaların təmiri ilə bağlı ilkin görüntülər var və eyni zamanda, qəsəbədə müşahidə olunan bu səliqəsizlik adamı incidir. Qəsəbəni bu gündə təsəvvür etmək mümkün deyil. Ona görə biz Hadrutu beynəlxalq mədəniyyət və turizm mərkəzinə çevirmək əzmindəyik.

Qəsəbənin və Xocavənd rayonunun inkişafı ilə bağlı əsas istiqamət kənd təsərrüfatı olacaq - bitkiçilik, heyvandarlıq, üzümçülük. Burada üzümçülük ənənələri olubdur, üzüm üçün çox münbit şərait var. Kənd təsərrüfatı ilə bərabər, bura çox dəyərli turizm mərkəzi olacaq. Çünki Xocavənd rayonunun turizm potensialı çox genişdir. Bura təbiətcə çox zəngin məkandır, hər tərəf dağlar, meşələr, çaylar, cənnətə oxşayan bir yerdir. Tarixi abidələr, körpülər, eyni zamanda, məşhur Azıx mağarası, Tağlar mağarası - bunlar burada yerləşir. Ermənilər Azıx mağarasını da erməniləşdirmək istəmişdilər. Bunların cəfəngiyyatının dərəcəsinə baxın, onlar bəyan edirdilər ki, Azıx mağarasında ermənilər yaşayıblar. Adam bilmir gülsün, yoxsa neynəsin. Azıx mağarasını aşkarlayan da azərbaycanlı arxeoloqlar olmuşlar. O arxeoloqlar böyük tədqiqat işləri aparmışdılar. Ermənilər, sadəcə olaraq, təbliğat üçün dünyanın bir neçə ölkəsindən alimlər gətirərək burada şou yaradırdılar. Demək olar ki, mağaraya böyük ziyan vurublar. Keçən dəfə mən burada olanda o mağaranın girişinə qədər qalxdım. Tarixi abidələrlə zəngin olan bu yerlərdə turizm mərkəzləri, otellər tikmək üçün azərbaycanlı və xarici investorları da dəvət etmək istəyirəm. Çünki dünyada Xocavənd kimi, Hadrut qəsəbəsi kimi gözəl səfalı yerlər çox azdır. Ermənilər Kəlbəcərdəki, Laçındakı və digər yerlərdəki meşələrimizi qırıblar. Kəlbəcər, Laçın, Zəngilan rayonlarında 60 min hektara yaxın meşə sahəsi tamamilə məhv edilib, qırıblar, yandırıblar, Cəbrayılda da, həmçinin, amma burada yox. Ona görə burada təbiət demək olar ki, toxunulmaz qalıb. Bir də ki, burada faktiki olaraq əhali yox idi. Hadrutda bəlkə min nəfər yaşayırdı-yaşamırdı. Əhali yox idi. Ona görə bax, bu bölgənin saf təbiətini biz qorumalıyıq. Vətəndaşlar bura qayıtdıqdan sonra, ilk növbədə, bu təbiətin qorunmasına gərək özləri fikir versinlər və əlbəttə, dövlət də öz üzərinə düşən vəzifələri icra edəcək.

Bizim Xocavənd rayonunun, Hadrut qəsəbəsinin gələcək inkişafı ilə bağlı çox böyük planlarımız var. Biz bu gün bu planların icrasına start verdik. Bu gün xocavəndlilər öz doğma torpaqlarına gəliblər, bundan sonra gəlişlər daha da tez-tez həyata keçiriləcək.

Mən sizi bu tarixi gün münasibətilə bir daha təbrik edirəm, sizə cansağlığı, yeni uğurlar arzulayıram. Sağ olun.

* * *

Sonda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 9-da Xocavənd rayon ictimaiyyətinin nümayəndələri ilə birlikdə Tuğ kəndini gəzib.

**AZƏRTAC-ın materialları əsasında**

## "Terrordan əziyyət çəkmiş ölkə kimi Azərbaycan ərazisində heç zaman terrorçulara yer olmayıb"

*Əfsuslar olsun ki, İran Xarici İşlər Nazirliyi Azərbaycana qarşı böhtan kampaniyasından əl çəkmir. Bu kimi ittihamları qətiyyətlə rədd edirik.*

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva İran xarici işlər nazirinin Livanın Əl-Manar televiziya kanalına müsahibəsində Azərbaycanla bağlı söylədiklərinə münasibət bildirərkən deyib.

Leyla Abdullayeva qeyd edib: "Biz 44 günlük müharibə dövründə bəyan etmişdik, indi də növbəti dəfə vurğulayırıq ki, Azərbaycan ərazisində heç bir iddia olunan terrorçu olmayıb və yoxdur. Ümumiyyətlə, terrordan əziyyət çəkmiş ölkə kimi Azərbaycan ərazisində heç zaman terrorçulara yer olmayıb.

Azərbaycan öz torpaqlarını şəhidlərinin qanı və canı bahasına işğaldan azad edib. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, 100 min nəfərdən artıq şəxsi heyətə malik orduya sahib olan Azərbaycanın muzdlulara ehtiyacı yoxdur.

Təəccüblüdür ki, İran tərəfindən müharibə zamanı belə ittihamlar irəli sürülməmiş və müharibədən sonra ölkədə yeni hökumət hakimiyyətə gələnə qədər bu xüsusda heç bir narahatlıq doğuran məsələ olmayıb.

Antiazərbaycan kampaniyası İrana xeyir gətirməyəcək. Məlumdur ki, bu əsassız ittihamların səbəbləri İrana məxsus yük maşınlarının Azərbaycan ərazisinə qanunsuz daxil olmasının qarşısının alınması və Azərbaycan torpaqlarının işğaldan azad edilməsidir.

Terrorçuları axtarmaq istəyənlərə məsləhətimiz odur ki, onlar öz ətraflarına yaxşı baxsınlar. Xatırladırıq ki, hələ ötən ilin oktyabr ayında Azərbaycan XİN-i ölkənin o zaman işğal altında olan ərazilərində gedən döyüşlərdə erməni muzdlu döyüşçülərinin iştirakına dair konkret faktlara əsaslanan məlumatı ölkədəki diplomatik korpusa, o cümlədən İran İslam Respublikasının səfirliyinə təqdim edib".

# Müdafiə Nazirliyinin rəhbərliyi Hərbi Dəniz Qüvvələrinin komanda-qərargah təliminin gedişatı ilə tanış olub





*Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti Hərbi Dəniz Qüvvələrinin komanda-qərargah təliminin gedişatı ilə tanış olub.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, əvvəlcə ümummilli lider Heydər Əliyevin hərbi hissənin ərazisində ucaldılmış abidəsi önünə gül dəstələri qoyulub və ehtiram ifadə edilib.

Sonra HDQ-nin komandanı kontr-admiral Sübhan Bəkirov təlim barədə brifinq təqdim edib. Məruzə olunub ki, komanda qərargah təlimində Xəzər dənizinin Azərbaycana məxsus sektorunda enerji infrastrukturlarının mühafizə və müdafiəsi üzrə xəritə üzərində tapşırıqlar icra ediləcək.

Qeyd edilib ki, təlimin əsas məqsədi komandirlərin və qərargah zabitlərinin döyüşün təşkili və aparılması zamanı yaranmış müxtəlif şəraitdə çevik qərar qəbul etmə və



mövcud qüvvələrin səmərəli tətbiqi üzrə praktiki vərdişlərinin təkmilləşdirilməsi, o cümlədən şəxsi heyətin bilik və bacarığının artırılmasıdır.

Təlimə cəlb olunan heyət döyüş fəaliyyətləri zamanı bölmələrin fasiləsiz və qətiyyətlə idarə edilməsi üzrə tapşırıqları icra edirlər.

HDQ-nin təlimə cəlb olunan heyətinin məruzələrini dinlədikdən sonra Müdafiə naziri təlimin gedişatı ilə bağlı müvafiq tapşırıqlar verib.

Komanda-qərargah təlimi oktyabrın 13-dək davam edəcək.

# Azərbaycanın Müdafiə naziri NATO nümayəndəsi ilə görüşüb



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, oktyabrın 12-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov NATO Müttəfiq Qüvvələrinin Əməliyyat Komandanlığının Tərəfdaşlıq İdarəsinin rəisi kontr-admiral Bülent Turan ilə görüşüb.

Müdafiə naziri qonağı salamlayaraq Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılan qələbədən sonra azad edilən ərazilərdə görülən işlər, həmçinin Ermənistan-Azərbaycan dövlət sərhədində hazırkı vəziyyətlə bağlı ona ətraflı məlumat verib.

General-polkovnik Zakir Həsənov NATO ilə əməkdaşlığın cari vəziyyətindən və bu sahədə əldə edilmiş müsbət nəticələrdən məmnunluğunu bildirərək qarşılıqlı əlaqələrin daha da inkişaf etdirilməsinin vacibliyini diqqətə çatdırıb.

Kontr-admiral Bülent Turan Azərbaycan Ordusunun hərbi qulluqçularının Əfqanıstandakı "Qətiyyətli dəstək" qeyri-döyüş missiyasına verdiyi töhfəyə görə minnətdarlığını bildirib, mövcud hərbi əməkdaşlığın daha da genişləndirilməsinin tərəfdarı olduğunu vurğulayıb.

Görüşdə NATO ilə tərəfdaşlıq çərçivəsində keçirilən birgə tədbirlərə dair fikir mübadiləsi aparılıb.

# NATO ilə tərəfdaşlıq məsələləri müzakirə edilib



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, oktyabrın 12-də Azərbaycan Respublikasının Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-leytenant Kərim Vəliyev NATO Müttəfiq Qüvvələrinin Əməliyyat Komandanlığının Tərəfdaşlıq İdarəsinin rəisi kontr-admiral Bülent Turan ilə görüşüb.

Baş Qərargah rəisi qonağı salamladıqdan sonra Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılan qələbədən sonra Azərbaycan Ordusunda döyüş hazırlığının yüksək olduğunu və şəxsi heyətin ruh yüksəkliyinin daha da artdığını qeyd edib.

General-leytenant Kərim Vəliyev Azərbaycan Ordusunun bölmələrinin Əməliyyat İmkanları Konsepsiyası (ƏİK) çərçivəsində əldə etdiyi müsbət nəticələri və əməkdaşlığımızın bundan sonra da davam etdirilməsinin əhəmiyyətini qeyd edib.

Kontr-admiral Bülent Turan NATO ilə tərəfdaşlıq çərçivəsində bütün sahələrdə Azərbaycan Ordusunun hərbi qulluqçularının fəaliyyətini yüksək qiymətləndirdiyini bildirib.

Görüşdə NATO ilə əməkdaşlığın inkişaf perspektivləri, həmçinin hərbi, hərbi-texniki, hərbi təhsil, hərbi tibb və qarşılıqlı maraq doğuran digər məsələlərlə bağlı ətraflı fikir mübadiləsi aparılıb.

## "Vətən və torpaq qəhrəman igidlərin şücaətinə əbədi şahidlik edəcək"

Azərbaycanın qazandığı tarixi Zəfər hər bir türkiyəli üçün qürur mənbəyidir. 30 il yaşadığımız Qarabağ acısına birdəfəlik son qoyulmasına görə başda Müzəffər Ali Baş Komandan İlham Əliyev olmaqla, Azərbaycan Ordusuna, Azərbaycan xalqına minnətdarıq. Şəhidlərin ruhu qarşısında ehtiramla baş əyir, qazilərimizə Allahdan şəfa diləyirik. Onlara əbədiyyətə qədər borcluyuq.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Türkiyədə fəaliyyət göstərən İğdır-Azərbaycan Dil, Tarix və Mədəniyyət Birliyini Yaşatma və Dəstəkləmə Dərnəyinin sədri, saxta "erməni məsələsi" üzrə tədqiqatçı-yazar Ziya Zakir Acar ifadə edib.

İşğaldan azad olunan hər qarış torpağın əziz və müqəddəs olduğunu vurğulayan Ziya Zakir Acar deyib: "Azərbaycanlı igidlər qanları və canları ilə dövlətçilik tariximizin ən şərəfli səhifələrindən olan Qarabağ Zəfərini yazıblar. Zaman keçdikcə onların rəşadətinin əhəmiyyəti daha aşkar şəkildə görünəcək və yolumuza işıq salmağa davam edəcək. Gələcək nəsillər bu qəhrəmanların şərəfli döyüş yolunu kitablardan, kinolardan, romanlardan öyrənəcəklər. Amma Vətən və torpaq onların şücaətinə əbədi şahidlik edəcək".

# "Sarsılmaz qardaşlıq-2021" birgə əməliyyat-taktiki təliminin döyüş atışlı mərhələsi keçirildi



"Naxçıvan Qarnizonu Qoşunlarının 2021-ci tədris ilinə uzlaşma planı"na və Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında imzalanmış hərbi əməkdaşlıq haqqında sazişə əsasən, Naxçıvanda hər iki ölkənin motoatıcı, xüsusi təyinatlı, komando və müxtəlif qoşun növlərinin iştirakı ilə "Sarsılmaz qardaşlıq-2021" birgə əməliyyat-taktiki təliminin döyüş atışlı mərhələsi keçirildi.

Təlimin döyüş atışlı mərhələsindən əvvəl Əlahiddə Ümumqoşun Ordu Komandanı general-polkovnik Kərəm Mustafayev, Türkiyə Respublikasının 3-cü Ordu Komandanı general-polkovnik Yavuz Türkgənci və müxtəlif qoşun növü komandirləri silahlanmaya yeni qəbul edilən hərbi-texniki vasitələrə baxdılar, səhra şəraitində müasir cihaz və avadanlıqlarla təmin edilmiş döyüşü idarəetmə məntəqəsi ilə tanış oldular.

Təlimin planı ilə tanışlıq zamanı bildirildi ki, "Sarsılmaz qardaşlıq-2021" Azərbaycan-Türkiyə birgə əməliyyat-taktiki təliminə Əlahiddə Ümumqoşun Ordunun, "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının,



Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin, Dövlət Təhlükəsizliyi Xidmətinin və Türkiyə Silahlı Qüvvələrinin bölmələri cəlb edildi. Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin şəxsi heyəti arasında təcrübə mübadiləsinin genişləndirilməsi, yaradılan birgə qərargahlarda əməliyyatların planlaşdırılması, bölmələrin vahid mərkəzdən idarə olunması, bölmələrlə qərargahlar arasında qarşılıqlı əlaqənin və qoşunların hərtərəfli təminatının təşkili üzrə suallar işlənildi.

Planla tanışlıqdan sonra təlimə start verildi.

Təlimin ssenarisinə əsasən xüsusi təyinatlı həmlə qrupları düşmən müdafiəsinin ön xəttindəki hakim yüksəklikləri ələ keçirdi.

Hücumun dərinliyə inkişaf etdirilməsi və düşmən ehtiyatlarının fəaliyyətinin məhdudlaşdırılması məqsədi ilə paraşütlə hava desantı atıldı.

Mövqelərini gücləndirmək üçün hərəkətdə olan şərti düş-



mənin ehtiyat bölməsi həmlə qrupu tərəfindən pusquya salındı və düşmənə məxsus zirehli transportyorlar bölmələrimiz tərəfindən qənimət kimi götürülərək əməliyyat rayonundan çıxarıldı.

Hücum edən qoşunlarla birgə "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının bölmələri dövlət sərhədində düşmənin diversiya-kəşfiyyat qruplarının dağıtdığı əraziləri bağladı, azad olunan ərazilərdə dövlət sərhədinin müdafiə və mühafizəsini təmin etdi.

Naxçıvan Qarnizonu Qoşunlarının və Türkiyə Silahlı Qüvvələrinin komando birliklərinin tərkibində fəaliyyət göstərən snayper qrupları düşmən müdafiəsinin ön xəttində və yaxın dərinliyində tək hədəfləri aşkarlayaraq məhv etdi.

Hakim yüksəklikdə yerləşən düşmənin dairəvi müdafiə qovşaqlarının ələ keçirilməsi üçün xüsusi həmlə qrupları düşməni məhv etdi, qənimət kimi əldə edilən tankəleyhinə dəzgahlı qumbaraatanların və hava hücumundan müdafiə vasitələrinin atəşləri ilə digər mövqedə yerləşən düşmən bölmələrini zərərsizləşdirdi və ən aşağı hündürlükdə uçan düşmən aviasiyasının hücumlarını dəf edildi.

Hücum edən qoşunların irəliləməsini təmin etmək üçün Əlahiddə Ümumqoşun Ordunun raket və artilleriya bölmələri tərəfindən düşmənin müdafiə dərinliyindəki ehtiyatlarına, dağ silsilələrində yerləşən taqım və bölük dayaq məntəqələrinə zərbələr endirildi.

Tank və piyadanın döyüş maşınlarından ibarət taktiki qruplar raket və artilleriya bölmələrinin atəş basqınından yararlanaraq dağlıq şəraitdə düşmənin ön xəttindəki atəş vasitələrini məhv etdi, hücum edən bölmələrimiz irəlilədikcə yeni atəş mövqelərinə yerdəyişməni həyata keçirdi.

Naxçıvan Qarnizonu Qoşunlarının xüsusi hazırlıqlı heyətlərindən və Türkiyə Silahlı Qüvvələrinin komando birliklərinin tərkibindən ibarət hücum qrupu zirehli transportyorların atəş dəstəyi ilə yaşayış məntəqəsinin düşməndən təmizlənməsi fəaliyyətlərini yerinə yetirdi.

Yaşayış məntəqəsində döyüşlər zamanı yaralılara ilk tibbi yardım göstərilərək helikopter vasitəsilə təxliyə edildi və eyni zamanda Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin struktur qurumlarının xilasedici alpinistlərindən ibarət təxliyə qrupları dağlıq ərazidən yaralıların təxliyəsini həyata keçirdi. Təxliyəni həyata keçirən helikopterin mühafizəsini təşkil edən digər iki helikopter düşmənin dağ silsilələrində yerləşən bölük dayaq məntəqələrinə atəş zərbələri endirdi.

Döyüşün müsbət dinamikasından yararlanan xüsusi təyinatlı qruplar yüksək dağlıq və sərt qayalıq ərazilərdə düşmən müdafiəsinin yaxın dərinliyində yerləşən mövqeləri, dağ silsiləsi boyunca hakim yüksəklikləri ələ keçirərək taktiki qrupların hücumunun inkişaf etdirilməsinə əlverişli şərait yaratdı.

Bölmələrimizin hücumunu dəstəkləmək üçün düşmənin yaxınlaşmaqda olan ehtiyatlarına və dərinlikdəki hədəflərinə döyüş təyyarələri ilə ən aşağı hündürlükdə zərbələr endirildi.

"Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının bölmələri dövlət sərhədi boyu hakim yüksəklikləri düşmən bölmələrindən azad etdi, Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin və Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının xüsusi təyinatlılarından



ibarət qruplar tərəfindən mağaralarda gizlənən düşmən qrupları aşkar edilərək zərərsizləşdirildi.

Azad olunan ərazilərdə qoşunların hərtərəfli təminatını həyata keçirmək üçün pirotexniki taqım hərəkət yollarında keçidlərin açılmasını, partlamayan sursatların axtarışını və zərərsizləşdirilməsini yerinə yetirdi, yanğından mühafizə taqımı azad edilən yaşayış məntəqəsində yanğınların lokallaşdırılması və söndürülməsi fəaliyyətini icra etdi.

Düşmənin darmadağın edilməsinin başa çatdırılması və hücum edən qoşunların dəstəklənməsi məqsədi ilə əraziyə taktiki hava desantı endirilərək, ələ keçirilən dağ aşırımının ən yüksək zirvəsindən Azərbaycan və Türkiyə Respublikalarının dövlət bayraqları asıldı.

Sonda döyüş təyyarələri və helikopterlərin keçidi ilə Azərbaycan və Türkiyə Respublikalarının dövlət bayraqları, eləcə də kanatla desantın daşınması nümayiş etdirildi.



Təlimdən sonra şəxsi heyətlə görüş oldu.

Əlahiddə Ümumqoşun Ordu Komandanı general-polkovnik Kərəm Mustafayev və Türkiyə Respublikasının 3-cü Ordu Komandanı general-polkovnik Yavuz Türkgənci şəxsi heyəti salamladılar.

Əlahiddə Ümumqoşun Ordu Komandanı general-polkovnik Kərəm Mustafayev birgə təlimin döyüş atışlı mərhələsinin uğurla başa çatması münasibətilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun təbrikini şəxsi heyətə çatdırdı.

General-polkovnik Kərəm Mustafayev qeyd etdi ki, böyük öndər Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" və ümummilli liderimiz Heydər Əliyevin "Azərbaycan-Türkiyə bir millət, iki dövlətdir", - fikirlərinə əsaslanan ikitərəfli münasibətlərimiz bu gün ölkə Prezidentləri tərəfindən uğurla davam etdirilir, strateji tərəfdaşlığımız daha da möhkəmlənir. 44 günlük Vətən müharibəsində Türkiyənin Azərbaycanın haqq işinə verdiyi siyasi və mənəvi dəstək hər bir vətəndaşımızı qürurlandırır. Hər iki ölkənin Silahlı Qüvvələrinin məqsədi bölgədə sülhə və əmin-amanlığa nail olmaq, bir-birinə dəstək verməkdir. 2013-cü ildən Naxçıvandan başlayaraq davam edən və bu gün izlədiyimiz birgə taktiki təlimlər hərbi sahədə genişmiqyaslı əməkdaşlığımızın bariz nümunəsidir. Bu gün keçirilən birgə təlimdə də dünyada bənzəri olmayan qardaşlıq münasibətlərinə malik olan hər iki dövlətin ordularının şəxsi heyəti yüksək peşəkarlıq, döyüş əzmi və sarsılmaz qardaşlıq nümayiş etdirdi.

Türkiyə Respublikasının 3-cü Ordu Komandanı general-polkovnik Yavuz Türkgənci 44 günlük Vətən müharibəsində qazanılan qələbə münasibətilə hərbçilərimizi təbrik edərək birgə təlimlərin Türkiyə-Azərbaycan qardaşlığının daha bir ifadəsinə çevrildiyini qeyd etdi. Təlim zamanı tapşırıqların yüksək peşəkarlıqla icrası nəticəsində hədəflərin sərrast atəşlə məhv edildiyini deyən Türkiyə Respublikasının 3-cü Ordu Komandanı birgə təlimin keçirilməsinə göstərilən diqqətə görə minnətdarlığını bildirdi.

Təlimdə fərqlənən hərbi qulluqçular qiymətli hədiyyələrlə mükafatlandırıldı və şəxsi heyətlə xatirə şəkli çəkdirildi.

Sonda şəxsi heyət birlik və bərabərliyin ifadəsi olan "Hamı bir nəfər, bir nəfər hamı üçün" şüarını səsləndirdi.

**Nəriman NƏCƏFOV**
**Naxçıvan Muxtar Respublikası**

# Şəhidlərin xatirəsinə həsr olunan tədbirlər keçirilib

*Biləsuvar rayonunda Vətən Müharibəsi Qəhrəmanı şəhid polkovnik-leytenant Orxan Əkbərovun şərəfinə inşa edilən xatirə abidəsinin açılış mərasimi olub.*



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, mərasimdə şəhidin döyüş yoldaşları, Müdafiə Nazirliyinin əməkdaşları, qazilər, rayon rəhbərliyi və yaxınları iştirak ediblər.

Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və respublikamızın ərazi bütövlüyünün qorunması, bərpası, eləcə də tarixi torpaqlarımızın işğaldan azad edilməsi uğrunda şəhidlik zirvəsinə ucalan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Açılış mərasimində çıxış edənlər şəhidin şərəfli həyat və döyüş yollarından, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında qazanılan Qələbənin tarixi əhəmiyyətindən danışıblar.

Orxan Əkbərovun Vətən müharibəsində göstərdiyi qəhrəmanlıq və şücaətinin gənc nəslə örnək olduğu tədbir iştirakçıları tərəfindən qeyd olunub.

Sonda şəhidin ailə üzvləri göstərilən diqqət və qayğıya görə Azərbaycan Prezidenti İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığını bildirib.

Şəhidin anası Azərbaycan Respublikasının Prezidentinə, Müdafiə Nazirliyinin rəhbərliyinə şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə minnətdarlığını bildirib.

Sonda şəhidin həyat yoluna dair videoçarx nümayiş olunub və vətənpərvərlik mövzusunda musiqi nömrələri təqdim edilib.



* * *

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində və Kürdəmirdə torpaqlarımızın azadlığı uğrunda canını fəda edən şəhid gizir Cəmil Həşimlinin xatirəsi yad olunub.

Tədbirlərdə əvvəlcə ulu öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Dövlət Himni səsləndirilib.

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində keçirilən mərasimdə Müdafiə Nazirliyinin və ictimaiyyətin nümayəndələri, şəhidin ailəsi, dostları iştirak ediblər.

Çıxış edənlər şəhidin həyatından, vətənpərvərliyindən, keçdiyi döyüş yolundan və göstərdiyi şücaət nümunələrindən danışıblar.

Kürdəmir şəhərində keçirilən "Qısa ömrün şərəfli tarixi" adlı anım mərasimində isə "N" hərbi hissəsinin şəxsi heyəti, rayon rəhbərliyi, şəhidin döyüş yoldaşları, yaxınları və ictimaiyyətin nümayəndələri iştirak ediblər.



Kürdəmir Regional Mədəniyyət İdarəsinin rəisi Faiq Xudanlı tədbiri açaraq şəhid Cəmil Həşimlinin şərəfli döyüş yolundan danışıb. Vurğulayıb ki, Vətən uğrunda şəhid olanların xatirəsi daim əziz tutulur. Cəmil və digər qəhrəman şəhidlərimizin canı-qanı bahasına qazanılan bu qələbə ilə Azərbaycan xalqı Zəfər salnaməsi yazıb.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Kürdəmir rayon şöbəsinin rəisi Həbib Əliyev, Kürdəmir rayon icra hakimiyyəti başçısının müavini Vəsilə Əsgərli, şöbə müdirləri Mirmahmud Mahmudov və Elxan Qafarov da çıxış edərək Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında qazandığımız Qələbənin tarixi əhəmiyyətindən, eləcə də işğal altında olan torpaqlarımızın 44 gün ərzində azad edilməsində Vətən övladlarının qəhrəmanlıqlarından danışıblar.

Şəhidin anası Simuzər Bağıyeva da ölkəmizdə şəhid ailələrinə göstərilən diqqət, qayğıdan danışıb, dövlətimizin başçısına və tədbirin təşkilatçılarına minnətdarlığını bildirib.

Qeyd edək ki, şəhid gizir Cəmil Əflatun oğlu Həşimli 1995-ci il avqustun 11-də Kürdəmir rayonunda anadan olub. İlk təhsilini rayondakı Famil Həşimov adına 3 saylı tam orta məktəbdə alıb. Üç qardaşın ikincisi olan Cəmil həmişə qardaşlarına və anasına arxa olub, xüsusi bacarığı ilə fərqlənib. 2013-cü ildə həqiqi hərbi xidmət keçib. Xidməti başa vurduqdan sonra bu sahəyə olan həvəsi onu yenidən hərbçi olmağa sövq edib. O, kurs keçərək gizir kimi xidmətə başlayıb. Vətən müharibəsi döyüşlərində igidliklə iştirak edərək şəhidlik zirvəsinə ucalan gizir Cəmil Həşimli ölümündən sonra ölkə başçısının müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

**İsa Eldaroğlu**
**hərbi jurnalist**

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə Vətən müharibəsi şəhidi baş leytenant Teymur Tehran oğlu Məcidzadənin doğum gününə həsr olunan anım mərasimi keçirildi.



Mərasimdə şəhidin ailə üzvləri, dostları, hərbçi yoldaşları, Füzuli və Nizami rayon İcra Hakimiyyətlərinin, o cümlədən ictimaiyyət nümayəndələri iştirak etdilər.

Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində təşkil olunan tədbirdə ümummilli lider Heydər Əliyevin və Vətənimizin ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Şəhid Teymur Məcidzadənin həyat və döyüş yolu barədə məlumat verildi. 1992-ci il oktyabrın 10-da Füzuli rayonunun Gecəgözlü kəndində anadan olub. Lakin hələ körpə yaşlarında Ermənistanın başlatdığı antihumanist müharibə nəticəsində Teymur ailəsi ilə birlikdə məcburi köçkün düşüb. Doğulduğu gözəl torpaqları görə bilməməyi onda kiçik yaşlarından düşmənə qarşı nifrət yaradıb. Gələcəkdə Vətəninə layiqli övlad olmaqla yanaşı, keşiyində də durmağı özünə borc bilən gənc, Azərbaycan Dövlət İqtisad Universitetinin "Dünya iqtisadiyyatı" fakültəsini bitirdikdən sonra hərbi xidmətə yollanıb.

Sentyabrın 27-də baş leytenant Məcidzadə ölkə başçımızın əmri ilə başlanan "Dəmir yumruq" əks-hücüm əməliyyatında Vətən torpaqlarının azadlığı uğrunda gedən döyüşlərdə şücaətlə döyüşüb. Doğma kəndlərinin düşməndən azad edilməsində iştirak edən Teymur, noyabrın 9-da qəhrəmancasına şəhid olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən, baş leytenant Teymur Məcidzadə ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" və "Hərbi xidmətlərə görə" medalları ilə təltif edilib.

Mərasim açıq elan olunduqdan sonra söz Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin rəisi polkovnik-leytenant İlkin Qayıbova verildi. "Şəhidlərimizi tanımaq, tanıtdırmaq bizim mənəvi borcumuzdur. "Şəhidlər ölməz, Vətən bölünməz" tədbirlər silsiləsi bunun üçün nəzərdə tutulub. Mən öz adımdan, Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin kollektivi adından bütün şəhidlərə Allahdan rəhmət diləyirəm, ailələrinə səbir arzulayıram".

Şəhidin atası Tehran Nəcəfov oğlu ilə fəxr etdiyini bildirdi. "Mənim oğlum şəhidlik zirvəsinə ucaldı. Mən Teymurla və Vətən uğrunda canından keçən hər bir şəhidlə qürur duyuram. Onların hamısı mənim övladlarımdır. Bu gün bizim onların xatirəsini yad etməyimiz onu göstərir ki, Azərbaycan xalqı həm öz qəhrəmanlarını, həm də qazanılan böyük qələbəni unutmayacaq. Bizim şanlı tariximizə daha bir zəfər əlavə olundu. Hər birinizə, başda Ali Baş Komandan və Müdafiə Nazirliyinin rəhbərliyi olmaqla, göstərilən diqqət və qayğıya görə minnətdaram."

Çıxışlar zamanı baş leytenant Teymur Məcidzadənin həyatından, Vətənə sevgisindən, xalqa bağlılığından söz açıldı. Şəhidin həyat yoluna dair videoçarx nümayiş olundu.

Mərasimin sonunda Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistlərinin ifasında vətənpərvərlik mövzusunda musiqi nömrələri səsləndirildi.

**Leytenant**
**İbrahim MƏMMƏDBƏYOV**
**"Azərbaycan Ordusu"**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Hərbi Tibb Fakültəsində şəhidin anım mərasimi keçirildi



Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsində Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan tibb xidməti leytenantı Turqut Xəlilbəylinin anım mərasimi keçirildi.

Mərasimdə Müdafiə Nazirliyinin, ictimaiyyətin nümayəndələri, şəhidin ailə üzvləri və fakültənin şəxsi heyəti iştirak etdilər.

İştirakçılar şəhid tibb xidməti leytenantı Turqut Xəlilbəylinin adına olan Hərbi Tibb Fakültəsinin kitabxanasına baş çəkdilər.

Sonra xalqımızın ümummilli lideri Heydər Əliyevin və Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və torpaqlarımızın azadlığı uğrunda canlarından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Anım mərasimində T.Xəlilbəylinin şərəfli həyat və döyüş yoluna həsr olunmuş videoçarx nümayiş etdirildi.

Bildirildi ki, torpaqlarımızın ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarında yüksək peşəkarlıq, fədakarlıq və rəşadət göstərdiyinə, həmçinin vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidentinin müvafiq sərəncamlarına əsasən ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilib.



Çıxış edənlər şəhidin Vətən müharibəsində yaralılara ilkin tibbi yardım göstərməsindən, onun vətənpərvərliyindən, cəsurluğundan, şücaətindən danışdılar.

Sonda vətənpərvərlik mövzusunda mahnılar səsləndirildi.

**Baş leytenant**
**Orxan HÜSEYNLİ**
**"Azərbaycan Ordusu"**

# "Oğlum Səxavətlə həmişə fəxr edəcəyəm"




Şəhid Səxavət Rizvan oğlu Abbasovun xatirəsinə həsr olunan anım mərasimi Vətənin cəsur övladlarını tanımaq və tanıtmaq məqsədilə keçirilən "Şəhidlər ölməz, Vətən bölünməz" silsiləsindən idi. Belə anım mərasimləri Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində mütəmadi olaraq təşkil olunur.

Əvvəlcə ulu öndər Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Şəhid Səxavət Abbasovun həyat və döyüş yolundan bəhs edən videoçarx nümayiş olundu.

Çıxış edənlər Vətən müharibəsində şəhid olan Səxavət Abbasovun ömür kitabını vərəqlədilər. Bildirdilər ki, Abbasov Səxavət Rizvan oğlu 25 aprel 2000-ci ildə Abşeron rayonunun Xırdalan şəhərində dünyaya göz açıb. Şəhərdəki 1 nömrəli orta məktəbdə təhsil alıb. Orta məktəbi bitirdikdən sonra ordu sıralarına yollanıb. Əsgəri xidmətini cəbhə bölgəsində yerləşən hərbi hissədə yerinə yetirib. 2019-cu ildə xidmətini uğurla başa vuraraq doğmalarının yanına alnıaçıq qayıdıb. 2020-ci ilin sentyabrında Vətən müharibəsinə yollanıb. Xocavənd və Füzuli rayonlarının azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Füzuli rayonunun ərazisindəki böyük strateji əhəmiyyətə malik Ərgünəş yüksəkliyi uğrunda gedən döyüşlərdə şəhid olub.

Vətən müharibəsində göstərdiyi igidliyə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə Abbasov Səxavət Rizvan oğlu "İgidliyə görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medallarına layiq görülüb.



Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin rəisi polkovnik-leytenant İlkin Qayıbov çıxışında bildirdi ki, Səxavət kimi cəsur oğullarla hamımız fəxr edirik. Vətən üçün bu cür cəsarətli övladlar böyütdüklərinə görə şəhid analarına dərin minnətdarlığımı bildirirəm. Səxavət kimi igid döyüşçülərin xatirəsi həmişə xalqımız tərəfindən əziz tutulacaq.

Şəhid Səxavət Abbasovun anası Mayisə Abbasova çıxış edərək oğlu ilə bağlı xatirələrini dilə gətirdi. "Mən oğlum Səxavətlə həmişə öyünəcəm, fəxr edəcəyəm" - dedi. Şəhid anası həmçinin övladının xatirəsini hörmətlə andıqlarına görə ölkəmizin başçısına və Müdafiə Nazirliyinin rəhbərliyinə dərin minnətdarlığını bildirdi.

Anım mərasiminin bədii hissəsində Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistləri Vüsal Ağayev, Nərgiz Nuruyeva, Gülnar Mirzəyeva və Elçin Məmmədov, Fərman Əsgərov vətənpərvərliyi, qəhrəmanlığı tərənnüm edən mahnılar ifa etdilər.

**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**

# Atanın döyüş yolunu davam etdirən oğullar

Bu gün ən uca məqamda - şəhidlik məqamında qərar tutan, Vətən müharibəsində tarix yazan oğullarımızdan biri leytenat Elvin Şükürlünün qısa, lakin şərəfli ömür yolundan söhbət açacağıq. Elvin hərbçi ailəsində dünyaya göz açıb. Atası Birinci Qarabağ müharibəsi veteranı, ehtiyatda olan kapitan Azad Şəkərov Horadiz əməliyyatının fəal iştirakçılarından olub. İki vətənpərvər zabit oğul böyüdüb, tərbiyə edib, boya-başa çatdıran ata oğullarıyla daima qürur duyduğunu və fəxr etdiyini dedi.

Vətən müharibəsində eyni cəbhədə silahdaş olan iki qardaş, leytenant Elvin Şükürlü və baş leytenant Elnur Şükürlü döyüşlərdə zabit adını uca tutaraq, içdikləri Hərbi anda sadiq qalıb şərəfli döyüş yolu keçdilər. Təəssüf ki, qardaşlardan kiçiyi - Elvin Şükürlü sentyabrın 28-də Kəlbəcər rayonu istiqamətində şəhadətə yüksəldi.

Hər bir şəhidə həsr olunan guşə onun ömür yolunun bir tarixçəsidir. Şəhid leytenant Elvin Şükürlünün 23 illik şərəfli ömür və döyüş yoluna həsr olunan guşə də bizə onun vətənpərvərliyindən, qorxmaz, iradəli bir döyüş zabiti olmasından xəbər verir.

Leytenant Elvin Şükürlünün qısa, lakin şərəfli ömür yoluna nəzər salaq. O, 1997-ci il iyunun 14-də Füzuli rayonunda anadan olub. Əslən Cəlilabad rayonundan olsalar da, atası Füzulidəki hərbi hissələrdən birində xidmət edib. Ona görə də ailə Füzuli rayonunda yaşamalı olub. Elvinin hərbi sahədə ilk addımı 2011-2014-cü illərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə təhsil almaqla başlayır. 2014-2018-ci illərdə isə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində "motoatıcı" ixtisası üzrə təhsil alır. Leytenant hərbi rütbəsini aldıqdan sonra "N" hərbi hissəsində taqım komandiri kimi xidmətə başlayır. Vətən müharibəsinin ilk günündən ön sıralarda olan Elvin Şükürlü döyüş yoldaşları ilə birlikdə Kəlbəcər istiqamətində döyüş postlarından birinin alınmasında iştirak edir. İki gündən sonra savaşçılarımız sentyabrın 28-də postu geri almağa cəhd edən düşmənin əks-hücumu ilə üzləşirlər. Yüksəklik uğrunda gedən qızğın döyüşlər zamanı Elvin Şükürlü aldığı güllə yarasından şəhidlik zirvəsinə ucalır. Lakin uzun müddət itkin olan leytenantın



nəşi bu ilin yanvarında tapılır. Şəhid leytenant yanvarın 22-də II Fəxri xiyabanda torpağa tapşırılır.

Şəhid atası deyir ki, hər iki oğlum səngərlərdə böyüdü. "Onlar gözlərini açıb hərbi forma, silah, səngər gördülər. İdmanla məşğul olurdular. İstəyirdim ki, təhsilləri ilə bərabər fiziki hazırlıqları da yüksək olsun. Mən bir ata kimi onlarla həmişə dost, qardaş oldum. Övladlarım vətənpərvər böyüdülər. Elvin də, Elnur da bu müqəddəs yola - Vətəni, torpağı göz bəbəyi tək qorumaq, onun uğrunda döyüşmək, şəhid olmaq yoluna birgə çıxdılar. Hər ikisi Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini bitirdikdən sonra çətin dağ şəraitində yerləşən ön xətt bölmələrində xidmət ediblər. Elvin zabit olaraq qarşısına hədəf qoymuşdu: general olacaqdı. O, xidmətindən qürur duyurdu, heç zaman yorulmurdu. Tabeçiliyində olan əsgərlərinə böyük qardaş idi. Tovuz döyüşlərində taqım komandiri kimi vəzifə borcunu layiqincə yerinə yetirdiyinə görə hərbi hissə komandanlığı tərəfindən ona təşəkkür elan olunub. Elvin özünün arzuladığı məqamdan - general olmaqdan da ən uca zirvəyə - şəhidlik zirvəsinə ucaldı..."

Atasının hərbçi olması Elvinin də, qardaşı Elnurun da həyatına təsirsiz ötüşmədi. Hər iki qardaş atalarının yolunu davam etdirdilər.

Şəhidin anası Vəfa xanım oğlu ilə bağlı uşaqlıq, orta məktəb, kursant illərindən ən xoş xatirələrini kövrək hisslərlə bizə danışdı.

Həm kursant, həm də zabit yoldaşı olan leytenant Kamran Hüseynov isə Elvin kimi bir vətənpərvər zabit, igid, qəhrəman oğulla dost, yoldaş olmasını hər zaman qürurla xatırlayacağını dedi.

Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə leytenant Elvin Şükürlü ölümündən sonra "Kəlbəcərin azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif olunub.

Şəhidin qardaşı baş leytenant Elnur Şükürlü isə hazırda hərbi xidmətini davam etdirir.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin rəyasət heyətinin iclası keçirildi





*Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin rəyasət heyətinin geniş tərkibdə iclası keçirildi. İclasda həmkarların üzvləri iştirak etdi.*

Öncə ümummilli lider Heydər Əliyevin və Vətənimizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Tədbiri açıq elan edən komitə sədri Abiyat Ağadadaşova bildirdi ki, bir ilə yaxındır xalqımız Qələbə sevincini yaşayır. "Uzun həsrətdən sonra işğal altında olan torpaqlarımızın azad olunduğunu görmək, Azadlıq meydanında Zəfər paradını izləmək çox qürurvericidir. Şanlı Qələbəmiz bizim güclü iradəmizi, xalqımızın əzmini, Azərbaycan dövlətinin gücünü bütün dünyaya nümayiş etdirdi. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu nail olduğu Zəfəri qızıl hərflərlə tarixin səhifələrinə həkk etdi.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dəfələrlə dediyi bu fikir; "Sözümüzlə əməlimiz arasında heç bir fərq yoxdur. Mən demişdim ki, tarixi Azərbaycan torpaqlarında heç vaxt ikinci erməni dövləti yaradılmayacaq" öz təsdiqini tapdı. Tarixi ədalət bərpa edildi. Ali Baş Komandanın rəhbərliyi ilə görülən bütün tədbirlər, ordu quruculuğu sahəsində aparılan islahatlar və məqsədyönlü siyasət öz nəticəsini verdi. Müharibə ərəfəsində Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Ali Baş Komandanla çiyin-çiyinə durması, qazilərimizə göstərdiyi diqqət və qayğı hamımızı ruhlandırdı.

Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsi və onun üzv təşkilatları da Vətən müharibəsi dövründə şanlı ordumuza, əsgər və zabitlərimizə, həkimlərimizə, eyni zamanda arxa cəbhədə fəaliyyət göstərən vətəndaşlarımıza maddi və mənəvi cəhətdən dəstək vermək üçün bir sıra tədbirlər həyata keçirdi.

Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsi tərəfindən 2020-ci il oktyabrın 2-də Silahlı Qüvvələrin yardım fonduna pul vəsaiti köçürüldü...".

Komitə sədri 2020-ci il oktyabrın 8-də Rəyasət Heyətinin bir neçə üzvü ilə Beyləqana səfər etdi. Komitə tərəfindən səfər zamanı döyüşçülərimizə sovqat, tibbi ləvazimatlar apardı.

Abiyat Ağadadaşova qeyd etdi ki, Vətən müharibəsində həmkar sədrləri və üzvləri də iştirak edib. "Onlardan 3 nəfər şəhid olub. Şəhid olan həmkar üzvlərinin ailələrinə maddi dəstək verilib və onların sosial-məişət şəraiti daim nəzarətimizdədir. Vətən müharibəsinin həmkar üzvü olan 100 nəfərdən çox qazimizə də tərəfimizdən maddi köməklik göstərilib.

2020-ci il dünya əhalisi üçün də çox çətin bir dövr kimi yadda qaldı. Dünyada tüğyan edən COVID-19 pandemiyasının iqtisadi fəsadları çox böyük oldu və insanların yaşayış tərzinə əhəmiyyətli dərəcədə mənfi təsir göstərdi. Respublikamız pandemiyaya qarşı mübarizədə, habelə zərərçəkmiş vətəndaşlarımıza maliyyə dəstəyi göstərilməsi üçün dövlət büdcəsindən 2.5 milyard manat vəsait ayırdı. Bu baxımdan Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyası və Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsi də imkanlarını səfərbər edərək bir sıra addımlar atdı: pandemiya dövründə koronavirus infeksiyasının qarşısının alınması məqsədi ilə Prezident İlham Əliyevin qətiyyətli addımlarını dəstəkləyərək işəgötürən tərəfindən işçilərin sayının əsassız azaldılmasının qarşısının alınması məqsədilə bir sıra dövlət qurumları ilə birgə Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyası işəgötürənlərə bildirişlər göndərdi. Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin onlayn iclasında da qeyd edildi ki, həmkarlar ittifaqı bu çətin günlərdə ölkə Prezidentinin yanında olmalı, imkanları daxilində pandemiya şəraitində aztəminatlı ailələrin ehtiyaclarının ödənilməsi üçün bütün imkanlarını səfərbər etməlidir. Biz Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsi olaraq 2020-ci il martın 13-də Respublikamızda xüsusi karantin rejiminin tətbiq edildiyi ilk gündən etibarən üzv təşkilatlarımız ilə bir sıra tədbirlər həyata keçirdik. Pandemiya dövründə hərbi hissə və müəssisələrdə çalışan aztəminatlı işçilərin sosial müdafiəsini diqqət mərkəzində saxlayaraq, komitənin büdcəsi hesabına həmkarlar təşkilatının üzvü olan şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə və müharibə veteranlarına, qazilərə, aztəminatlı ailələrə, 65 yaşdan yuxarı tənha insanlara 2500-dən çox ərzaq qutusu paylandı. Təşkilatımız işçilər arasında yoluxma hallarının qarşısının alınması məqsədilə maarifləndirmə və məlumatlandırma işlərini həyata keçirərək işəgötürənlə birgə iş yerlərində işçilərin yoluxmaması üçün sosial məsafəni gözləmək şərti ilə tənəffüs yollarını qoruyan fərdi tibbi vasitələr (tibbi maska, spirt, respirator və s.) alınaraq işçilərə təqdim edildi".

Komitə sədri bu işlərin görülməsində təşkilatlarına daim əməli köməklik, maddi və hüquqi yardım göstərən Müdafiə Nazirliyinə, Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyasına, Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqının Respublika Komitəsinə minnətdarlığını bildirdi.

Abiyat xanım çıxışının sonunda bildirdi ki, komitənin kollektivi ümummilli lider Heydər Əliyevin ideyalarına sadiq qalaraq və Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin apardığı siyasəti dəstəkləyərək, xalq ilə ordu birliyinin möhkəmləndirilməsinə bundan sonra da öz töhfəsini verəcək. Yaranan fürsətdən istifadə edərək xalqımızı qarşıdan gələn 8 Noyabr - Zəfər Günü münasibətilə səmimi qəlbdən təbrik edir, Vətənimə aydın səmalı firavan günlər arzulayıram. Ölkəmiz bundan sonra da daim inkişaf etsin və çiçəklənsin".

Tədbirdə yubiliyar həmkar üzvləri, ali məktəbə daxil olan və birinci sinfə gedən HİK sədrlərinin övladları təbrik olunaraq Fəxri fərmanlar, pul mükafatları və gül dəstələri təqdim olundu.

Sonda həmkar üzvlərindən İsa Qasımov, Sahib Əsədov, Əlisahib Nəsirov və başqaları çıxış edərək 44 günlük Vətən müharibəsindən, qüdrətli ordumuzun qazandığı Qələbədən, işğaldan azad olunan tarixi torpaqlarımızın abadlaşmasından danışdılar.

**Baş leytenant**
**Günay TAĞIYEVA**
**"Azərbaycan Ordusu"**

# “Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı kursu”nun növbəti buraxılış mərasimi keçirilib




Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı kursu"nun növbəti buraxılış mərasimi keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin, Vətənimizin suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Hərbi orkestrin ifasında Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Buraxılış mərasimində çıxış edənlər kursu müvəffəqiyyətlə bitirmələri münasibətilə məzunları təbrik edib, onlara gələcək xidmətlərində uğurlar arzulayıblar.

Məzunlar kurs müddətində qazandıqları bilikləri və praktiki vərdişləri xidmətdə tətbiq edəcəklərinə, qarşıya qoyulan tapşırıqları vicdanla yerinə yetirəcəklərinə və ölkəmizi layiqincə qoruyacaqlarına söz veriblər.

Kursu müvəffəqiyyətlə bitirən məzunlara sertifikatlar təqdim edilib.

Daha sonra məzunların tribuna önündən təntənəli keçidi olub. Sonda xatirə şəkli çəkdirilib.

# “Sarsılmaz qardaşlıq-2021” təlimində iştirak edən Türkiyə Silahlı Qüvvələrinin şəxsi heyətinin yola salınması mərasimi keçirilib

*"Sarsılmaz qardaşlıq-2021" Azərbaycan-Türkiyə birgə əməliyyat taktiki təlimində iştirak etmiş Türkiyə Silahlı Qüvvələrinin şəxsi heyətinin yola salınması mərasimi keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, mərasimdə çıxış edənlər "Naxçıvan Qarnizonu Qoşunlarının 2021-ci tədris ilinə uzlaşma planı"na və Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında imzalanmış hərbi əməkdaşlıq haqqında sazişə əsasən, Naxçıvanda keçirilmiş "Sarsılmaz qardaşlıq-2021" birgə əməliyyat-taktiki təlimində iki qardaş ölkənin hərbi qulluqçularının yüksək peşəkarlıq, vətənpərvərlik və sarsılmaz qardaşlıq nümayiş etdirdiklərini vurğulayıblar.

Təlimdə iştirak etmiş Türkiyə Silahlı Qüvvələri mənsublarına hədiyyələr təqdim edilib.

Əlahiddə Ümumqoşun Ordunun hərbi hissəsindən yola düşən Türkiyə Silahlı Qüvvələrinin şəxsi heyət və hərbi texnikaları "Ümid" körpüsündən keçməklə xidmət yerlərinə doğru hərəkəti davam etdiriblər.

# Zabitimiz dünya çempionu oldu

*Oktyabrın 2-dən 10-dək Norveçin paytaxtı Osloda keçirilən güləş üzrə dünya çempionatında Müdafiə Nazirliyinin Mərkəzi Ordu İdman Klubunun zabiti qızıl medal qazanıb. Yarışda ölkəmizi hər 3 güləş növü üzrə idmançılarımız təmsil edib.*




Yarışın 6-cı günündə 82 kq çəki dərəcəsində mübarizəyə qoşulan yunan-Roma güləşçimiz baş leytenant Rafiq Hüseynov əvvəlcə Estoniya güləşçisini vaxtından əvvəl üstələyib. Qırğızıstan idmançısı da təcrübəli güləşçimiz qarşısında tab gətirməyib. İsveçli dünya ikincisi və Avropa üçüncüsü Aleks Kessidislə görüş dramatik alınıb. Rafiq ilk hissəni 0:6 hesabıyla başa vurub. İkinci yarıda əsl əzmkarlıq nümayiş etdirən zabitimiz güclü rəqibinə minimal fərqlə qalib gələrək yarımfinala vəsiqə qazanıb. Finalın bir addımlığında Rusiya pəhləvanıyla gərgin keçən görüşdən də üzüağ çıxan Rafiq ardıcıl 2-ci dəfə dünya çempionatının finalına yüksəlib. Həlledici görüşdə Türkiyə güləşçisinə qalib gələn həmyerlimiz dünya çempionu olub.

Mərkəzi Ordu İdman Klubunun nailiyyətlərinə daha birini əlavə edən baş leytenant Rafiq Hüseynov bundan qabaq 2 dəfə Qızıl Qran-Pri qalibi, dəfələrlə Azərbaycan çempionu, Avropa çempionu, 2015-ci ildə keçirilən hərbçilərarası Olimpiya çempionatının qalibi, 2017-ci il İslam Həmrəyliyi Oyunlarının qalibi, dünya ikincisi və 77 kq çəki dərəcəsində Tokio Yay Olimpiya Oyunlarının bürünc mükafatçısı olub. İdmançımız haqqında qəzetimizdə dəfələrlə məqalələr dərc olunub. O, həmişə müsahibələrində ata yolunun davamçısı olduğunu vurğulayıb. Beləki, Rafiqin idmanla ilk tanışlığı atası, Azərbaycan Respublikasının Əməkdar Məşqçisi Radik Hüseynovun sayəsində olub. Elə ilk məşqçisi də atası olub. Hər dəfə qazandığı qələbələrdə atasının zəhməti olduğunu qeyd edən zabitimiz, məhz final görüşündə qələbə qazandıqdan sonra da telekameralar vasitəsilə atasına müraciət edərək "Ata, oğlun dünya çempionudur" deyib.

İdmançı olmaqla yanaşı şərəfli peşə sahibi olan Rafiqin düşüncələrini öyrənirəm. Hələ ölkəmizə qayıtmadığına görə idmançımızla görüşə bilmədiyim üçün təəssüflənir, telefon zəngi edib qələbə sevincini bölüşürəm.

Çox sevincli və qürurlu olduğunu qeyd edən idmançımız çətin yarış olduğunu bildirir. "Rəqiblərimin hər biri peşəkar idmançılar olsa da qalib gələcəyimə inamım böyük idi. Yarışda da inam və mübarizlik əsas silahlardan biridir. Öz üzərimdə çox çalışır, əzmkarlıqla məşqlər edirdim. Qızıl medal qazanmağı qarşıma məqsəd qoymuşdum. Burada qalib gəlməyin mənim üçün xüsusi bir yeri var. Mən idmançı olmaqla yanaşı, hərbçiyəm. Bu turnirin Vətən müharibəsinin ildönümünə təsadüf etməsi məni qalib olmağa daha da ruhlandırdı. Qızıl medal qazanıb qələbəmi ötən il bu günlərdə Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə əzəli torpaqlarımızdan düşmənləri qovan rəşadətli ordumuza həsr etmək istəyirdim. Bu məqsəd mübarizliyimi, dözümlülüyümü, inamımı ikiqat artırdı. Qalib ordunun zabiti kimi, tatami üzərində də qələbə qazanacağıma inanırdım. Şükürlər olsun ki, arzumu reallaşdırdım, qızıl medalı qazandım".

33 yaşlı MOİK pəhləvanı qələbəsindən sonra azarkeşləri təəccübləndirən jesti haqqında da danışdı.

"Qalib gəldikdən sonra Türkiyə və Azərbaycan bayrağını bir yerdə götürməyim və 44 deməyim təsadüfi deyildi. Bu qələbəmi torpaqlarımızın azadlığı uğrunda qəhrəmanlıq göstərərək şəhid və qazi olan qardaşlarımızın xatirəsinə, həmçinin hər zaman olduğu kimi haqq savaşımızda da bizə ən böyük dəstək göstərən qardaş ölkə Türkiyənin terrorla apardığı mübarizədə həlak olan şəhidlərinə ərmağan etdi. Bu qələbə tək mənim yox, ordunun, şəhidlərin, qazilərin qələbəsidir. Ona görə də simvolik olaraq sonda 44 deyib, qələbəmi kimə həsr etdiyimi bütün dünyaya elan etdim. Qoy şəhidlərimizin ruhları şad olsun. Çünki biz onların əziz xatirəsini heç zaman unutmur, unutmayacaq, qəlbimizdə daim yaşadacağıq. Allahdan şəhidlərimizə rəhmət, qazilərimizə şəfa, yaxınlarına səbir diləyirəm".

İdmançımız bildirir ki, Norveçin paytaxtı Osloda keçirilən güləş üzrə dünya çempionatına yekun vurulub.

Mundialın son 4 günündə klassik güləş üzrə mübarizə baş tutub. Yunan-Roma güləşi üzrə millimiz baş məşqçi Aleksandr Tarakanov, böyük məşqçi Rövşən Bayramov və məşqçi Həsən Əliyevin rəhbərliyi altında uğurlu çıxış edib. Belə ki, yığmamız 1 qızıl, 1 gümüş və 2 bürünc medalla 107 xal toplayıb və komanda hesabında dünya üçüncüsü olub. Rusiya (152) birinci, İran (146) isə ikinci pillədə qərarlaşıb.

Beləliklə, komandamız 6 illik fasilədən sonra DÇ-də ilk üçlükdə qərarlaşıb.

...Baş leytenant Rafiq Hüseynovla danışığımızı yekunlaşdırır, düşüncələrini bölüşdüyünə görə redaksiyamız adından təşəkkürümü bildirirəm. Möhtəşəm qələbəsi münasibətilə zabiti bir daha təbrik edir, ona möhkəm can sağlığı, ailə səadəti və idman arenalarında yeni-yeni qələbələr arzulayıram.

**Baş leytenant**
**Mahmud MÖHBALIYEV**
**"Azərbaycan Ordusu"**

# Füzuli və Xocavənd rayonlarına media-tur təşkil edilib

Ötən il sentyabrın 27-də düşmən təxribatının qarşısını almaq məqsədilə Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu cəbhə boyu geniş miqyaslı əks-hücum əməliyyatlarına başladı. 44 gün davam edən uğurlu "Dəmir yumruq" əks-hücum əməliyyatları Böyük Qələbəmizlə başa çatdı. Noyabrın 9-dan 10-na keçən gecə Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistan baş nazirinin imzaladığı birgə Bəyanatla müharibəyə son qoyuldu. Bununla da rəşadətli Azərbaycan Ordusu düşmən üzərində tarixi Qələbə və şanlı Zəfər qazandı, onu diz çökdürdü. 30 ildən sonra ərazi bütövlüyümüz təmin olundu.



Rəşadətli Azərbaycan Ordusunun ötən ilin oktyabrında işğaldan azad etdiyi Füzuli şəhəri, Hadrut qəsəbəsi və ətraf kəndlərdə aparılan yenidənqurma və abadlıq işləri, xidmət edən şəxsi heyətin xidməti və döyüş fəaliyyətinin təşkili ilə yaxından tanış olmaq məqsədilə kütləvi informasiya vasitələrinin (KİV) nümayəndələri üçün media-tur təşkil olunub.

KİV nümayəndələri Füzuli şəhəri və Hadrut qəsəbəsinin işğaldan azad olunması əməliyyatlarında iştirak edən bir qrup hərbi qulluqçunun və qazinin xatirələrini lentə alıblar.

Tədbir çərçivəsində jurnalistlər bu ərazilərdə xidmət aparan hərbçilərin sosial-məişət şəraiti və yaşayış yerləri ilə yaxından tanış olublar. Əsgər yeməkxanasında hərbi qulluqçularla birgə nahar ediblər.

**"Azərbaycan Ordusu"**

# İdman

## Yunan-Roma güləşi üzrə Azərbaycan millisi rekorda imza atıb



Norveçin paytaxtı Osloda keçirilən güləş üzrə dünya çempionatına yekun vurulub.

Mundialın son 4 günündə yunan-Roma güləşi üzrə mübarizə baş tutub.

Millimiz baş məşqçi Aleksandr Tarakanov, böyük məşqçi Rövşən Bayramov və məşqçi Həsən Əliyevin rəhbərliyi ilə uğurlu çıxış edib. Belə ki, yığmamız 1 qızıl, 1 gümüş və 2 bürünc medalla 107 xal toplayıb və komanda hesabında dünya üçüncüsü olub. Rusiya (152) birinci, İran (146) isə ikinci pillədə qərarlaşıb.

Beləliklə, komandamız 6 illik fasilədən sonra dünya çempionatında ilk üçlükdə qərarlaşıb. Bundan başqa, Azərbaycan yunan-Roma güləşi tarixində ilk dəfə dünya çempionatında 4 medal qazanıb ki, bu da rekord nəticədir.

Qeyd edək ki, Osloda Rafiq Hüseynov (82 kq) qızıl, Sənan Süleymanov (77 kq) gümüş, Eldəniz Əzizli (55 kq) və Murad Məmmədov (60 kq) isə bürünc medal qazanıb.

## Azərbaycan cüdoçuları dünya çempionatını iki medalla başa vurublar



İtaliyanın Olbia şəhərində gənclər arasında cüdo üzrə dünya çempionatında Azərbaycan komandası çıxışını başa vurub.

Turnirin son günündə təmsilçimiz Nərmin Əmirli (78 kq) mübarizə aparıb. O, ilk qarşılaşmasında kanadalı Korali Qodbuta uduzub.

Bununla da, komandamız çempionatı 2 medalla başa vurub. Belə ki, Turan Bayramov (60 kq) gümüş, Elcan Hacıyev (81 kq) bürünc medal qazanıblar.

Turnirdə 72 ölkədən 500-ə yaxın cüdoçu iştirak edib.

## IFFHS: Azərbaycan millisi Avropada 13-cüdür

UEFA-ya üzv olan ölkələrin milli komandalarının tarixinin ən gənc futbolçularının siyahısı açıqlanıb.

Beynəlxalq Futbol Tarixi və Statistikaları Federasiyası (IFFHS) 55 yığmanın hər birinin rekordçusunu təqdim edib.

Azərbaycan millisi də siyahıda yer alıb. Komandamızın mütləq rekordçusu Araz Abdullayevdir. Yarımmüdafiəçinin millidəki debütü 16 yaş 172 günlüyündə gerçəkləşib. 2008-ci il oktyabrın 11-də ilk dəfə milli forma geyinən futbolçu iki gündən sonra yığma karyerasının 13 illiyini tamamlayacaq.

Azərbaycan millisi debütantının gəncliyinə görə Avropada 13-cüdür. Yəni yalnız 12 yığmada daha gənc oyunçular olub.

Avropa rekordu serbiyalı Antun Rudinskiyə məxsusdur. O, 15 yaş 32 günlüyündə milli forma geyinib.

Serbiyadan başqa, Şimali İrlandiya, Macarıstan, Lüksemburq, Norveç, Çexiya, Belçika, Türkiyə, Yunanıstan, İtaliya, Ermənistan və Andorrada da daha gənc debütant olub.

**AZƏRTAC-ın materialları əsasında**

Kapitan Mahmudov Aydın Asif oğluna məxsus MN № 0043456 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Kazımov Davud Cəfər oğluna məxsus № 001046 nömrəli "Müharibə Veteranı" vəsiqəsi və № 001365 nömrəli "Silahlı Qüvvələrin Veteranı" vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor vəzifəsini icra edən**
kapitan
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Fuad CƏFƏROV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 665
Nüsxə 4044